# KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİ ÜZRƏ KADR HAZIRLIĞINDA PROFESSOR ABUZƏR XƏLƏFOVUN XİDMƏTLƏRİ

**İradə Bayramova**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru*

Əməkdar elm xadimi, professor Abuzər Xələfov kitabxanaçılıq-informasiya sahəsinin inkişafında xüsusi xidmətləri olan, Azərbaycanda kitabxana işinin tarixini, nəzəriyyəsini, inkişafını dünyada tanıdan, geniş yaradıcılıq arenasına malik olan böyük alimdir. Bütün fəaliyyətini kitabxana işinin inkişafına, gələcək perspektivlərinin tədqiq edilməsinə, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına sərf edən görkəmli alimin davamçıları bü gün onun yolunu şərəflə davam etdirirlər.

Yüksək ixtisaslı kitabxanaçı kadrlarının hazırlanmasında mühüm rol oynayan Bakı Dövlət Universitetinin kitabxanaçılıq şöbəsinin əsası 1947-1948-ci illərdə Universitetin filologiya fakültəsi nəzdində qoyulmuşdur. 1962-ci ildə isə müstəqil kitabxanaçılıq fakültəsi təşkil edilmişdir. İlk kitabxanaçı kadrlarının hazırlanmasında Əliheydər Qəhrəmanov, Hüseyn Tağıyev, Məryəmxanım Səmədova bütün imkanlardan istifadə edərək, dərs dedikləri fənləri yaxşı mənimsəməklə, bu sahədə elmi məqalələr, kitablar, vəsaitlər yazmışdılar. İlk tədris ilində fakültəyə 16 nəfər, 1949-cu ildən sonra isə 25 nəfər daxil oldu. 1955-ci ildə kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan bölməsi yaradıldı. Bu bölməyə birinci il 50 nəfər tələbə qəbul edilmişdi. 1959-cu ildə şöbədə qiyabi rus bölməsi də təşkil edildi. Kitabxanaçılıq fakültəsinin axşam bölməsi 1963-cü ildə yaradılmışdır. 1973-cü ildən başlayaraq, tələbələrin sayı 50 nəfərə çatdırıldı.

Müstəqil Kitabxanaçılıq fakültəsinin təşkili Azərbaycan mədəniyyət və təhsil tarixində çox mühüm hadisə idi. Fakültənin yaradılması mədəniyyətin olduqca mühüm sahələrindən biri olan müxtəlif tip kitabxanaları yüksək ixtisaslı kadrlarla təmin etmək imkanı verməklə, əhaliyə kitabxana-informasiya xidmətinin yaxşılaşdırılmasına şərait yaradırdı. Nəticə etibarı ilə kitabxanaşünaslıq və biblioqrafiya elmlərinin inkişaf etdirilməsi, bu sahədə əsaslı elmi tədqiqatların aparılması və elmi kadr-

ların hazırlanmasına böyük imkanlar açdı. Fakültənin yaradılması Azərbaycan kitabxanaşünaslığı və biblioq-rafiyaşünaslığı tarixində yeni mərhələnin əsasını qoydu. Fakültənin yaradılması ölkə kitabxanalarının kadr təminatında aparıcı rol oynadı.

Bu gün Kitabxanaçılıq-informasiya fakültəsində Əməkdar elm xadimi, professor Abuzər Xələfovun yetirmələri professor X.İsmayılov, N.İsmayılov, E.Əhmədov, K.Aslan, M.Məmmədov, P.Kazımı, S.Xələfova, Z.Rzayeva, X.Ağayeva, S.Sadıqova, S.İsmayılova, E.Məmmədov kimi alimlərimiz tələbələrə sahə üzrə müxtəlif fənnləri tədris edirlər. Fakültənin əyani, qiyabi şöbələri ilə yanaşı, həm də rus və ingilis bölmələri, magistr və doktorantura pillələri də fəaliyyət göstərir. Kitabxanaçılıq-informasiya fakültəsi kitabxana işinin dünya standartları səviyyəsinə uyğunlaşdırılması sahəsində nəzəri və təcrübi problemlərlə məşğuldur. Fakültədə gənc alimlərin yetişdirilməsinə xüsusi diqqət göstərilir. Bu gün kitabxanaçı-biblioqraf kadrlarının təhsili sahəsində fakültənin çox önəmli rolu var. Azərbaycanda kitabxanaçılıq-informasiya sahəsinin bü günkü inkişaf səviyyəsinə görə hamımızın müəllimi Əməkdar elm xadimi, professor Abuzər Xələfovu hörmətlə anırıq.